

Zaur BAYRAMOĞLU

# Unutmayaq soyqırımı!

31 Mart 1918...
Başlandı soyqırımı günahsız və köməksiz
bir millətin həmin gün...
Ta Bakıdan Ərdahana, Təbrizdən Dərbəndədək...
Küçələrdən sel axırdı...
Su deyil, qan axırdı....
Batı dəstəkli haylar rusların silahıyla
Öldürüb insanları evləri yağmalayırdı
Andraniklə Nijde toplamışdı onları.
Daşnaksütun dənizdən-dənizə
Hayastan yaradacaqdı....
Kim görmüşdü yuxuda, bilmirəm, o xəritəni,
soxmuşdu boş başına hayların "böyük Ermənistan"ı?
Ondan da yüz il qabaq, yersiz-yurdsuz sərsəri,
dilənçi bir milləti ruslar yığıb gətirib
şərik etdi aşımıza...
Üstündən çox keçməmiş,
doğub törəyən alçaq bəla oldu başımıza
31 Mart günü küçələrdən sel axırdı.
Axan sel su deyildi, al-qırmızı qan axırdı...
Nakaşidzedən dəstək alan barbar Sumbat
dolaşırdı Bakı küçələrini
belində tapançası, sinəsində xaçıyla.
Bir zombitək içirdi suçsuzların qanını
Yaxalanan körpələrin ayağından tutub
başlarını vurduğu daş-divardan
süzülüb axan qanlı beyinlərinə baxıb göbək atırdı...
Körpə bədənlər qan içində titrəyərək can verərkən:
- Bu türklərin başını ilantək əzmək gərək!
- deyib nəşəylə qəhqəhə çəkirdi...
Neçə məsum uşağı öldürmüşdü o vandal,
kim bilə bilərdi ki?
Bəlkə, otuz, ya əlli? Bəlkə də, yüzdən çoxu...
Siyahı tutan yoxdu, fürsətdi, çox öldürün,
- deyə bağırırdı hay...
Bakıdan Ərdəhana, Təbrizdən Dərbəndədək
vətənin hər yanında hayların barbarlığı,
zülmü dirəndi ərşə.
"Yüklü" qadınları süngülərlə
"azad edib" yüklərindən,
Qaynar samovarları yüklədilər anaların belinə...
Kişiləri topluca "kazığa" oturdaraq ortadan ayırdılar....
İnanmayan oxusun Kazım Paşa günlüyün...
Milyon yarım insanı
çeşid-çeşid zülmlə öldürən ermənilər
İndi də qan-qan deyirlər...
Unutqanıq niyəsə... həm də çox unutqanıq.
Tez unutduq nədənsə, dost olduq, kirvə olduq...
Yoxsa unutmáz idik
nə qırx səkkizi, nə də səksən səkkizi
Unutqan olmasaydıq,
baş verməzdi Xocalı, nə də ki digərləri...
31 Mart.... Küçələrdən sel axırdı....
Bu sel su deyildi, hər yerdə qan axırdı....
Diri-diri gömülən insanlar
Urmuda, Zəngəzurda, Göyçədə, İrəvanda
Üsyan edib Tanrıya bağırırdı: - Hardasan?!
Qubadan Şamaxıya, Lənkərandan Qarsadək
Hər yerdə üzə çıxan bu toplu məzarlıqlar
İsbatıdır o günlər yaşadılan dəhşətin...
Artıq bitsin, son olsun!
Erməniylə dost olsaq
Yüz minlərcə şəhidin ruhları qənim olsun!